# Biz haqlıyıq, biz zəfər çalacağıq!

## Bu gün Azərbaycanın əsas məqsədi ərazi bütövlüyümüzü bərpa etməkdir



***Azərbaycanın Silahlı Qüvvələri sentyabrın 27-dən başlayaraq əks-hücum əməliyyatları nəticəsində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi. Düşmənin çox sayda komanda məntəqəsi, tankı, artilleriya qurğusu, raket sistemi, canlı qüvvəsi məhv edildi və xeyli hərbi texnikası, silah-sursatı ələ keçirildi. Azərbaycan Ordusunun əks-hücum əməliyyatları ilə işğal altında qalan torpaqların bir hissəsini azad etməklə işğala əsaslanan status-kvonu dəyişdi. Beləliklə, Dağlıq Qarabağ münaqişəsinin hərb yolu ilə həll oluna biləcəyinin mümkünlüyü sübuta yetirildi. Eyni zamanda, düşmənə Dağlıq Qarabağ probleminin xalqımız üçün çox həssas məsələ olduğu və torpağımızın bir qarışının belə işğalçıda qalmayacağı məntiqi də anladıldı.***

Təəssüf ki, sözügedən problemin həllinin uzanmasında dünya birliyi, beynəlxalq təşkilatlar tərəfindən məsələyə ikili standartlarla yanaşılması, münaqişənin ədalətli həllinə ciddi maraq göstərilməməsi də az rol oynamadı. Ən əsası isə münaqişənin həlli istiqamətində ATƏT-in Minsk qrupu öz vəzifəsinin öhdəsindən gəlmədi.

Bəzi həmsədrlərin ermənilərin tərəfini saxlamaları, işğal faktına göz yummaları açıq-aydın nəzərə çarpırdı. Bununla da işğalçının cəzasız qalması bölgənin təhlükəsizliyinə böyük təhlükə yaradırdı. Nəticəsiz danışıqlar, vasitəçilərin əhəmiyyətsiz, əksər hallarda isə ikili standartlara söykənən bəyanatları prosesi, necə deyərlər, ölü nöqtədən tərpətməyə imkan vermirdi. Yaranmış vəziyyət isə həm vasitəçiləri, həm də işğalçını qane edirdi. Təbii ki, Azərbaycan da öz milli məsələsi olan Dağlıq Qarabağ münaqişəsi ətrafında vəziyyətin sona qədər bu cür davam etməsi ilə razılaşmırdı.

Şübhəsiz ki, belə şəraitdə Azərbaycanın yeganə yolu qəti mövqe nümayiş etdirərək münaqişənin hərbi vasitə ilə həllinə üstünlük verməsi idi. Sentyabrın 27-dən başlayaraq Azərbaycanın Silahlı Qüvvələrinin əks-hücum əməliyyatları da məhz bu məntiqə əsaslandı və vəziyyətin bu yolla dəyişilməsi mümkünlüyünü sübuta yetirdi.

Hazırda Azərbaycan hərbi və siyasi şərtləri diktə edir. Məhz bunun məntiqi nəticəsidir ki, Azərbaycan hücum diplomatiyasına əsaslanan gedişlərlə regionun geosiyasi mənzərəsi sürətlə dəyişməyə başlayır.

Bu gün istər həm hərbi sahədə, istərsə də diplomatiyada tamamilə başqa bir mənzərə yaranıb. Azərbaycan Prezidenti müxtəlif KİV-lərə verdiyi müsahibələrində bir daha Azərbaycan həqiqətlərini dünyaya çatdırır, Ermənistan tərəfinin beynəlxalq hüquq və normalara sığmayan siyasət yürütdüyünü, işğalçılıq əməllərindən çəkinmədiyini bildirir. Erməni tərəfi döyüşləri saxlamağa, vaxt qazanmağa çalışır. Təəssüf ki, düşmən bütün mənfur əməllərinə Azərbaycan Ordusu tərəfindən qat-qat artıq adekvat cavab veriləcəyini anlamır.

Oktyabrın 14-də və 15-də Prezident İlham Əliyev "France 24" və Türkiyənin NTV televiziyalarına müsahibələrində bütün bunlar barədə ətraflı bəhs edib. Dövlətimizin başçısı fransız jurnalistinin Dağlıq Qarabağda gedən hərbi əməliyyatlarla bağlı əldə edilən humanitar atəşkəs barədə razılaşmanın pozulması haqqında sualına cavabında bunun Ermənistanın davranışından asılı olduğunu, Azərbaycanın isə öhdəliyinə həmişə sadiq qaldığını bildirib. Daha sonra qeyd edib ki, humanitar zəmində atəşkəsin elan olunması qərarı Rusiyanın təşəbbüsü olub. Şübhəsiz ki, Azərbaycan da bunu dəstəkləyib: "Çünki düşünürəm ki, ölmüş əsgərlərin cəsədlərini və girovları mübadilə etmək, fəaliyyəti danışıqlar masasında davam etdirmək üçün bu, doğru qərar idi. Çünki Moskvada elan olunmuş bəyannamədə faktiki olaraq danışıqların əsas prinsiplər çərçivəsində aparılacağı təmin edilmişdir. Bu, həmişə bizim mövqeyimiz olub. Ermənistan tərəfi həmişə prosesi pozmağa və danışıqlar masasına yeni yanaşmaları tətbiq etməyə çalışırdı. Bunlar bizim tərəfimizdən və Minsk qrupunun həmsədrləri tərəfindən rədd edilmişdir…".

Prezident İlham Əliyev müsahibəsində, həmçinin Ermənistanın yeni hökumətinin hakimiyyətə gələndən sonra son iki il ərzində qondarma "Dağlıq Qarabağ respublikasının hökumətini" danışıqlar masasına cəlb etməyə cəhd göstərdiyini diqqətə çatdırıb. Bundan məqsəd isə danışıqların formatını dəyişmək olub. Halbuki 20 ildən artıqdır ki, Minsk qrupu prosesi çərçivəsində aparılan danışıqlar Ermənistan və Azərbaycan arasında reallaşıb. Beləliklə, hər iki tərəfin humanitar atəşkəs razılaşmasında formatın dəyişməzliyinə sadiqliyi ifadə etməsi də məsələnin əvvəlki mövcud çərçivədə həllinə yönəlib. Lakin indiki hərbi əməliyyatların gedişində Ermənistan tərəfindən bu razılaşma qəsdən pozulub. Azərbaycan isə atəşkəs rejiminə sadiqlik nümayiş etdirib.

Ermənistanın atəşkəsi kobud şəkildə pozması Gəncə ilə yanaşı, digər ərazilərimizdə də açıq-aydın nəzərə çarpdı. Gəncədə mülki vətəndaşlara hücum isə onların təcavüzkar siyasətini əks etdirdi.

Ümumiyyətlə, erməni tərəfi atəşkəsi hər gün pozur, Tərtər və Ağdam şəhərlərini 150 dəfədən çox artilleriya atəşinə tutub. Təəssüf ki, bu hücumlar nəticəsində mülki şəxslər arasında çox sayda itkilər var.

Dövlətimizin başçısı müsahibəsində Azərbaycanın işğal olunan ərazilərdəki yaşayış sahələrində qəsdən mülki şəxslərin heç vaxt atəşə tutulmadığını, hədəflərin yalnız hərbi qurğular olduğunu, ümumiyyətlə, ordumuz tərəfindən hərbi hədəflərin çox diqqətlə müəyyənləşdirildiyini diqqətə çatdırıb: "Biz yalnız insanlarımızın və əsgərlərimizin həyatına təhlükə olan hədəfləri vururuq. Lakin əfsuslar olsun ki, ermənilər insanların yaşadığı şəhər yerlərində hərbi qurğuları yerləşdirmək taktikasından istifadə edirlər, biz də özümüzü müdafiə etməli idik. Lakin atəşkəs müəyyən olunandan bəri biz ona sadiq idik, ancaq Ermənistan atəşkəsi pozdu, odur ki, biz cavab verməli idik".

Prezident İlham Əliyev müsahibəsində, eyni zamanda, işğalçı dövlətə mesajlarını da verib. Bildirib ki, Ermənistan atəşkəsi pozandan sonra Azərbaycanın düşmənin hərbi hədəflərinə zərbələr endirməsi ölkəmizin özünü müdafiə etməsi ilə bağlı olub. Çünki atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əks halda, Ermənistan üstünlüyə malik olacaq və öz məqsədinə çatacaq. Əslində, işğalçı tərəf elə buna cəhd göstərir. Ermənistan ordusu bu gün azad edilən əraziləri geri almağa çalışır. Xüsusilə Hadrut şəhərini geri götürmək məqsədilə döyüşlər aparır. Lakin işğalçı uğursuzluqla qarşılaşır: "Mənim onlara məsləhətim belədir və mən artıq Ermənistan hökumətinə və həmçinin Ermənistan xalqına açıq şəkildə mesajımı ünvanlamışam ki, onlar azad edilmiş əraziləri geri götürmək cəhdlərini dayandırmalıdırlar. Bu, yalnız yeni qurbanlara səbəb olacaq və qan tökülməsinə gətirib çıxaracaqdır".

Dövlətimizin başçısı söhbətində guya Dağlıq Qarabağdakı kilsələrin bombardman edilməsi barədə jurnalistin sualını cavablandırarkən, bildirib ki, sözügedən məsələ araşdırılır. Əslində Azərbaycan tərəfi nə baş verdiyindən xəbərdar deyil. Azərbaycanı günahlandırmaq məqsədilə bunun ermənilər tərəfindən törədilə biləcəyinə dair şübhələr də var. Yox, əgər belə bir hərəkətə Azərbaycan hərbi birləşmələri yol veribsə, bu, səhv olub. Ölkəmizin hədəfləri sırasında heç bir tarixi və ya dini abidənin mövcudluğundan belə söhbət gedə bilməz. Çünki Azərbaycan dini tolerantlıq səviyyəsi çox yüksək olan bir respublikadır. Bu fakt bütün aparıcı beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən də təsdiqlənir. Vatikanın rəhbəri, Roma Papası Fransisk də Bakıya səfəri zamanı açıq şəkildə Azərbaycanda mədəniyyətlərarası və dinlərarası dialoqun səviyyəsinin çox yüksək olduğunu bildirib. Bakının mərkəzində Azərbaycanın bərpa etdiyi erməni kilsəsi var. Respublikada həmin kilsə erməni xalqının mirası kimi qorunur. Burada erməni dilində 5000-dən artıq qədim kitab saxlanılır. Lakin erməni tərəfi Azərbaycan məscidlərini, məsələn, Ağdam, Füzuli və Şuşanın dini ibadət ocaqlarını nəinki dağıdıb, hətta həmin müqəddəs yerlərdə donuz saxlayaraq, nəinki xalqımızın, ümumiyyətlə, bütün müsəlmanların hisslərini təhqir edib.

Azərbaycan Prezidenti müsahibəsində jurnalistin toxunduğu bir məqama da münasibət bildirib: "Bizdə muzdlular yoxdur. Bu, bizim rəsmi bəyanatımızdır. Toqquşmalar başlayandan artıq 2 həftədən çox vaxt keçib və heç bir ölkə bizə buna dair bir dəlil belə təqdim etməyib. Bundan əlavə, bizim buna ehtiyacımız yoxdur. Bizim 100 mindən çox döyüşçüdən ibarət ordumuz var. Bizim hazırda döyüş meydanında etdiklərimiz ordumuzun öz torpaqlarını özünün azad etməyə qadir olduğunu göstərir".

Yeri gəlmişkən, burada diqqəti bir məsələyə də yönəltmək istərdik. Belə ki, Azərbaycandan fərqli olaraq, Ermənistan ordusunda muzdlu döyüşçülərin hərbi əməliyyatlarda iştirakları dəlil-sübutlarla təsdiqlənib. Məsələn, rəsmi şəkildə Ermənistan tərəfindən xarici terrorçu qüvvələr və muzdluların geniş şəkildə ölkəmizə qarşı istifadə olunduğu bildirilib. Bu, Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı məlumatda da öz ifadəsini tapıb. Orada açıq mənbələrə istinadən bildirilir ki, Yaxın Şərq bölgəsindən, xüsusən Suriya, Livan, daha sonra Yunanıstan, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrdən erməni əsilli şəxslərin işğal olunmuş ərazilərə gəlməsi və yaxud bu istiqamətdə yola düşməsi ilə bağlı faktlar və məlumatlara rast gəlinir: "Ermənistan siyasi rəhbərliyi Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşdırma siyasətini həyata keçirib və bununla əlaqədar bir müddət öncə Livanda baş vermiş partlayışdan sonra bu ölkədəki erməni əsilli şəxslərin Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilməsi ilə bağlı nümayişkaranə şəkildə qeyri-qanuni faliyyətini davam etdirib.

Daha sonra müdafiə haqqında qanuna dəyişiklik edərək könüllü silahlı qruplaşmaların yaradıldığını elan edən Ermənistan artıq bu bölgədən köçürdüyü insanların hərbi birləşmələrə inteqrasiya edilməsi və Azərbaycana qarşı aparılan döyüşlərdə istifadə olunması qərarını verib".

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin NTV televiziyasına müsahibəsində Azərbaycan Ordusunun, demək olar ki, hər gün uğurlu əməliyyatlar keçirdiyini, əsas məqsədin– ərazi bütövlüyümüzün bərpası istiqamətində ordumuzun yeni uğurlar əldə etdiyini vurğulayıb: "Bizim uğurlu əməliyyatımız davam edir. Bu günə qədər, - əlbəttə ki, hər gün bu rəqəmlər dəyişir, - təqribən *40-a yaxın, ya da ki, 40-dan çox* yaşayış məntəqəsi, - şəhərlər və kəndlər işğalçılardan azad edilmişdir. Yaxın vaxtlarda növbəti sevincli xəbərlər, xoş xəbərlər gələcəkdir".

Dövlətimizin başçısı müsahibəsində ordumuzun hazırda əsas əməliyyatları şimal, cənub istiqamətlərində apardığını, uğurlu əməliyyatlar nəticəsində strateji əhəmiyyətə malik yüksəkliklərə nəzarət etdiyini, Ermənistanın Azərbaycana qarşı terror həyata keçirdiyini, Gəncə ilə yanaşı, digər şəhər və kəndlərimizi bombaladığını, atəşkəsi bilərəkdən pozduğunu və bununla bizə yeni hücumlar təşkil etdiyini, habelə bölgədə hər hansı bir məsələnin həllində Türkiyənin iştirakının zəruriliyini də xüsusi vurğulayıb.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*